

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 225 (23.136)

*24 noyabr 2018-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Payız-qış mövsümündə əhali fasiləsiz elektrik enerjisi ilə təmin ediləcək

***Müasir iqtisadi və mədəni həyatda elektrik enerjisi tətbiq olunmayan yer tapmaq çətindir. Məhz elektriklə işləyən cihaz, maşın və avadanlıqlar hər yerdə rahatlıq yaradır, evlərimiz isti, yollarımız çıraqban olur. Elektrik enerjisinin kəsilməsi nəticəsində törənən problemlər isə həmişə ciddi zərərlər verdiyindən bunların vaxtında həlli aid qurumlar qarşısında qoyulan məsələlərdəndir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti bu istiqamətdə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə istehlakçıların elektrik enerjisi təchizatının daha da yaxşılaşdırılması sahəsində tədbirlərin həyata keçirilməsi işlərini davam etdirir.***



Energetiklər bu payız-qış mövsümünə də ciddi hazırlaşıblar. Soyuq keçən aylarda əhalinin fasiləsiz elektrik enerjisi ilə təmini üçün elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılıb. Bundan başqa, tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması işləri də görülüb. Müxtəlifgərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi də həyata keçirilib. Bu məqsədlə Naxçıvan Modul Elektrik Stansiyasında 5 aqreqat üçün ehtiyat hissələri alınıb və ilin sonunadək həmin aqreqatlarda təmir işlərinin başa çatdırılması nəzərdə tutulur. Bundan əlavə, görülən işlər çərçivəsində Naxçıvan şəhərində 6 ədəd 10/0,4 kilovoltluq transformator yarımstansiyası təmir edilib, müxtəlif gücdə 9 ədəd 10/0,4 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb. 3,3 kilometr uzunluqlu 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilib, 10,8 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz edilib.

Bu istiqamətdəki tədbirlər muxtar respublikanın rayonlarında da davam etdirilib. Ümumilikdə, Dövlət Energetika Xidməti tərəfindən 2018-ci ilin on ayı ərzində muxtar respublikanın şəhər və kəndlərində 25 ədəd 10/0,4 kilovoltluq yeni transformator yarımstansiyası quraşdırılıb, 32,7 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətti çəkilib. 10,8 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz edilib. 2018-ci ilin on ayı ərzində Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 92 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb.

Muxtar respublikada bütün istehlakçıların istifadə etdiyi elektrik enerjisinin qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Hazırda Naxçıvan şəhəri və Babək qəsəbəsində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Hazırda bu tip sayğacların sayı 22 min 580-ə çatdırılıb. Elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilir.

Ötən dövrdə qurum tələb olunan mal-materialın, avadanlıqların alınıb gətirilməsini və onların zəruri ehtiyatının yaradılmasını davam etdirib. Xidmət tərəfindən xarici ölkələrin firma və şirkətləri ilə bağlanmış müqavilələr əsasında ağac dirəklər, qoruyucusu olan ayırıcılar, müxtəlif en kəsikli AER markalı özünüdaşıyan kabellər və XLPE markalı yüksəkgərginlikli və alçaqgərginlikli kabellər alınaraq muxtar respublikaya gətirilib.

Dövlət Energetika Xidmətinin müvafiq strukturları tərəfindən elektrik enerjisinin ötürülməsi zamanı yaranan texniki itkinin minimum həddə saxlanması üçün tədbirlər ardıcıl şəkildə həyata keçirilib. 2018-ci ilin on ayı ərzində, ümumilikdə, işlədicilərə dəyəri 27734,2 min manat təşkil edən 331816 min kilovat-saat elektrik enerjisi verilib.

**✍ Əli CABBAROV**

*Son illər Ordubad şəhərində bir-birindən yaraşıqlı binalar inşa olunub. Bu işlər cari ildə də intensiv şəkildə davam etdirilib.*

## Ordubad şəhərindəki quruculuq ünvanlarında son tamamlama işləri aparılır



Ordubad şəhərinin “İstanbul” küçəsində 24 mənzilli, 5 mərtəbəli yaşayış binasında “Cahan İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən əsaslı təmir işləri, demək olar ki, başa çatdırılıb, ətraf abadlaşdırılıb. Səməd Vurğun küçəsində isə Ordubad Şəhər İnzibati Ərazi Dairəsinin yerləşdiyi ikimərtəbəli binada əsaslı təmir-bərpa işləri başa çatdırılıb. Bu ünvanda binanın çardağı yenidən qurulub, qapı və pəncərələr, binadaxili rabitə və elektrik xətləri, kanalizasiya qurğuları yenilənib. Bundan başqa, binanın fasadına mərmər üzlük çəkilib, binadaxili divarlar və döşəmə yenilənib. Yaxınlıqdakı məişət xidməti binasının fasadı da suvanaraq boyanıb, ətrafı abadlaşdırılıb.

Ordubad şəhərinin Heydər Əliyev prospektində diqqətçəkən yeniliklərdən biri də rayon İcra Hakimiyyətinin inzibati binasının yenidən qurulmasıdır. Bir neçə ay ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə “Gəmiqaya Holdinq”in inşaatçıları binanın çardağını yenidən qurub, sıradan çıxmış fasad divarlarına yeni üzlük çəkib, üzərinə mərmər daşlar düzüblər. Binanın daxili də, demək olar ki, yenidən qurulub, bütün otaqlar və foyelər əsaslı surətdə təmir edilir. Bundan başqa, ətraf abadlaşdırılaraq səkilərə kilid daşı düzülür. Hazırda binanın daxilində və ətrafında son tamamlama işləri yerinə yetirilir.

Əsaslı surətdə təmir-bərpa edilən bu bina ilə üzbəüz yerləşən ərazidə isə hündürmərtəbəli yaşayış binasının inşası üçün hazırlıq işləri görülür.

**Abbas SEYİD**

## Kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi diqqət mərkəzindədir

***Muxtar respublikada qışa ciddi hazırlıq, payız-qış mövsümündə əhalinin tələbatını tam ödəmək üçün görülən tədbirlər sırasında onları təzə meyvə-tərəvəzlə təmin etməyə imkan verən soyuducu anbarların gücündən tam istifadə olunması xüsusi yer tutur.***



Bazarın ekoloji cəhətdən sağlam meyvə-tərəvəzlərlə təmin edilməsində, xüsusən kənd təsərrüfatı məhsullarının saxlanılmasında soyuducu anbarların mühüm rolu vardır. Eyni fikirləri qışın sərt keçən aylarında təzə tərəvəz məhsulları ilə bazarı təmin edən istixanalar haqqında da söyləmək olar. Muxtar respublikada bu kimi məsələlərin vacibliyinin lazımınca qiymətləndirilməsinin nəticəsidir ki, istər soyuducu anbar, istərsə də istixana təsərrüfatları yaradılması sahəsində müsbət nəticələr əldə olunub və bu istiqamətdə işlər uğurla davam etdirilir.

Qeyd edək ki, avqustun 4-də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə digər mühüm tapşırıqlarla yanaşı, İqtisadiyyat Nazirliyinin qarşısında mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünün təşkil edilməsinə, qəbul olunmuş meyvə-tərəvəzin saxlanılması üçün müvafiq texnoloji şəraitin yaradılmasına nəzarətin artırılması vəzifələri qoyulub.

Bu vəzifələrin icrası ilə əlaqədar soyuducu anbarların və istixana komplekslərinin sahibkarları arasında maarifləndirmə işləri aparılıb, mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş meyvə-tərəvəz məhsullarının anbarlara tədarük edilməsi məqsədilə kütləvi informasiya vasitələrində elanlar verilib, istehsalçı və tədarükçü sahibkarların fəaliyyətlərinin əlaqələndirilməsi təmin edilib.

Hazırda muxtar respublikada ümumi tutumu 14 min 245 ton olan 33 soyuducu anbar fəaliyyət göstərir. Ümumi tutumu 7 min 130 ton olan soyuducu anbar məxsus olduğu şirkətlərin fəaliyyəti ilə bağlı müxtəlif məhsulların dövriyyəsi üzrə ixtisaslaşdırılıb. Tutumu 7 min 115 ton olan digər soyuducu anbarlar isə meyvə-tərəvəz məhsullarının tədarükü və saxlanması üzrə ixtisaslaşdırılıb. Bu anbarlara mövsüm ərzində 4927,51 ton məhsul yığılıb. Belə ki, 3827,57 ton kartof, 665,59 ton soğan, 322,01 ton alma və digər kənd təsərrüfatı məhsulları tədarük olunub.

Bu məhsulların keyfiyyəti də diqqət mərkəzində saxlanılıb. “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin qida sınaq laboratoriyası tərəfindən soyuducu anbarlara tədarük olunan məhsullardan 40 halda, o cümlədən 16 halda kartof, 11 halda soğan, 13 halda alma məhsulundan orta nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilib, onların normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilib.

Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana komplekslərinin də mühüm rol oynayır. Bu sahəyə göstərilən diqqətin nəticəsində muxtar respublikada 129 min 162 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 22 istixana təsərrüfatı fəaliyyət göstərir. Cari ilin yanvar-oktyabr ayları ərzində istixana komplekslərində istehsal olunan 403 ton tərəvəz məhsulları istehlakçılara təklif olunub.

İstehsalçının maraqlarını təmin edən dövlət qayğısı nəticəsində 2000-ci ildən 2018-ci ilin ötən dövrünədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən istixana komplekslərinin yaradılması məqsədilə 26 layihənin maliyyələşdirilməsinə 4 milyon 643 min 600 manat, soyuducu anbarların yaradılması məqsədilə 11 layihənin maliyyələşdirilməsinə 4 milyon 297 min 840 manat dövlət maliyyə dəstəyi göstərilib. Bu soyuducu və istixana kompleksləri daxili bazarın meyvə-tərəvəz məhsullarına olan tələbatının növbəti qış mövsümündə də yerli istehsal hesabına ödənilməsinə imkan verəcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## *“Hüquq günləri”* layihəsi həyata keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamına uyğun olaraq 19-23 noyabr tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Hüquq günləri” adlı layihə həyata keçirilib. Layihə 5 gün davam edib, bu müddətdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri və işçiləri tərəfindən Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrinə müxtəlif mövzularda seminarlar keçirilib, hüquqi debat təşkil olunub. Onların Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində keçirilən məhkəmə proseslərində iştirakları təmin olunub və layihənin sonunda tələbələrə səhnələşdirilmiş məhkəmə formatında təlim keçirilib.

Layihənin son günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev tələbələrlə görüşüb. O, görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi islahatların tərkib hissəsi kimi hüquq-mühafizə orqanlarında çalışacaq yüksək peşəkarlığa malik, layiqli və humanist kadrların formalaşdırılmasının vacibliyini vurğulayıb. Qasım Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamının gələcəyin peşəkar, yüksək səriştəli kadrlarının yetişdirilməsi istiqamətində atılmış əhəmiyyətli addımlardan biri olduğunu bildirib.

Ali Məhkəmənin sədri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər barədə məlumat verib, həyata keçirilən tədbirlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb, fərqlənən tələbələrə sertifikatlar təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti**

## Naxçıvanda Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə tədbir keçirilib



Hicri təqvimi ilə Rəbbiul-əvvəl ayının 12-17-nə təsadüf edən Mövlud gecəsi Həzrəti Məhəmməd Peyğəmbərin doğum günüdür. İnsanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən Məhəmməd Peyğəmbərin mövludu günü İslamın əziz bayramı kimi bütün müsəlmanlar tərəfindən qeyd edilir.

İnsanları humanizm və bəşəri ideyalar ətrafında birləşdirən İslam dini tarixən xalqımızın dünyagörüşünün formalaşmasında və dini-mənəvi dəyərlərimizin inkişafında müstəsna rol oynayıb, Azərbaycanda islami dəyərlərin qorunub yaşadılmasına xüsusi diqqət yetirilib. ***“İslam dininin banisi Həzrəti Məhəmməd Peyğəmbərin mövlud günü bizim böyük bayramımızdır”***, – deyən ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-din münasibətləri bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, mütərəqqi dini dəyərlər və ənənələr həmişə uca tutulur. Naxçıvan Muxtar Respublikasında da islami dəyərlər qorunub yaşadılır, yeni məscid binaları tikilərək istifadəyə verilir, dini mərasimlər keçirilir. İslamın digər bayramları kimi, Məhəmməd Peyğəmbərin mövludu günü də hər il muxtar respublikada qeyd olunur.

Noyabrın 23-də Naxçıvan şəhərindəki “Came” məscidində Məhəmməd Peyğəmbərin mövludu günü qeyd olunub, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin adından ehsan verilib. Tədbirdə “Qurani-Kərim”dən ayələr oxunub, xalqımıza əmin-amanlıq, ölkəmizə sülh, inkişaf və tərəqqi arzulanıb.

**“Şərq qapısı”**

*Naxçıvan Dövlət Universitetində əcnəbi tələbələrin iştirakı ilə “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində müvəqqəti olması və yaşaması” mövzusunda maarifləndirici tədbir keçirilib.*

## Əcnəbi tələbələr miqrasiya sahəsində maarifləndiriliblər



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə ali təhsil ocağının Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Müşərrəf Məmmədova Dövlət Miqrasiya Xidmətinin ali təhsil ocağı ilə sıx əməkdaşlığından söhbət açıb. Qarşılıqlı əməkdaşlıq sayəsində əcnəbi tələbələrin müvəqqəti yaşayışı üçün qeydiyyata alınmasının artıq universitetin Beynəlxalq əlaqələr şöbəsində də yüksək səviyyədə aparıldığı bildirilib.

Dövlət Miqrasiya Xidməti rəisinin müavini, kiçik miqrasiya xidməti müşaviri Elnur Məmmədov çıxışında qeyd edib ki, belə tədbirlərin təşkili həm əcnəbi tələbələrin miqrasiya sahəsində maarifləndirilmələri, öz hüquq və vəzifələri ilə bağlı məlumat əldə etmələri, həm də muxtar respublikanın turizm potensialı ilə yaxından tanış olmaları baxımından əhəmiyyətlidir.

Tədbirdə Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Vəli Quliyev əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində müvəqqəti olması və yaşaması qaydaları ilə bağlı iştirakçılara ətraflı məlumat verib.

Xidmətin əməkdaşı Qiyas Paşayev əcnəbilərin olduğu yer üzrə qeydiyyatı və müvəqqəti yaşama icazələrinin verilməsi üçün elektron müraciət qaydalarını əyani şəkildə təqdim edib.

Sonda əcnəbi tələbələrə müvəqqəti yaşamaq üçün icazə vəsiqələri və maarifləndirici bukletlər təqdim olunub, müvafiq müraciətlər qəbul edilib.

Sonra tədbir iştirakçıları Qarabağlar Türbə Kompleksini ziyarət ediblər.

## Avtomobillərin tam və mülki məsuliyyətinin sığortasının faydaları

*Hər bir insanın yaşadığı evdə, yol getdiyi avtomobildə, keçdiyi küçədə elə gözlənilməz hadisələr baş verə bilər ki, onları əvvəlcədən demək çox çətindir. Belə təsadüfi riskli hadisələr hər yerdə gözlənilir və onlara inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdə rast gəlinə bilər. Gözlənilməz hadisələrin qarşısını almaq üçün nə qədər qabaqlayıcı tədbirlər görülsə də, bu sahədə texnoloji yeniliklərdən və maarifləndirmədən istifadə olunsa da, onlardan hər zaman yayınmaq praktik olaraq mümkün deyil. Bu da gözlənilməz hadisələrdən dəyən zərərlərin sığorta yolu ilə əvəz olunmasının əhəmiyyətini artırır.*

Bu baxımdan insan həyatına sıx daxil olmuş avtomobil nəqliyyat vasitələrindən istifadə zamanı da baş verən qəfil hadisələr həm avtomobilin özünə, həm də hadisənin digər iştirakçısının həyatına, sağlamlığına, mal və əmlakına zərərlər vura bilir. Bu da, öz növbəsində, avtomobillərdən istifadə ilə əlaqədar həm mülki məsuliyyət, həm də avtomobillərin tam sığortasının əhəmiyyətini artırır. Belə ki, avtomobil nəqliyyat vasitələrindən istifadə zamanı sığorta olunmaq bəzən qaçınılmaz bədbəxt hadisələrin vurduğu maddi zərərlərin əvəz edilməsində avtomobil nəqliyyatı sahibinin köməyinə gəlir. Ölkəmizdə mövcud olan qanuna əsasən belə bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyə biləcək zərərləri ödəmək üçün icbari, zərərvuran avtonəqliyyat vasitəsinin sahibinin özünə dəymiş maddi zərəri ödəmək üçün isə avtonəqliyyat vasitəsinin tam sığorta müqaviləsi, başqa sözlə, kasko sığortası müqaviləsi bağlanılır. Avtomobilin hərəkəti zamanı başqasının avtomobilinə və həyatına vura biləcəyi zərərlə əlaqədar avtomobil sahibinin çıxılmaz vəziyyətə düşə biləcəyini nəzərə alaraq mülki məsuliyyətin sığortası hər kəs üçün icbari qaydada tətbiq olunur. Sığorta hadisəsi baş verdiyi zaman zərərvuran avtomobil sahibinin öz nəqliyyat vasitəsinə dəymiş zərər isə bu hadisəyə qədər avtonəqliyyatı tam sığorta müqaviləsi olduğu halda ödənilir. Ona görə də avtonəqliyyat vasitələri sahibləri təkcə mülki məsuliyyətlərini deyil, həm də avtomobillərini də sığortalamalıdırlar. Çünki mülki məsuliyyətin sığortası ola biləcək qəza halında digər şəxslərin həyatına, sağlamlığına, mal və əmlaka vurduğu zərərlərin onun özü tərəfindən deyil, sığorta agentliyi tərəfindən ödənilməsini təmin edirsə, tam sığorta və ya başqa adı ilə kasko sığortası isə avtomobil sahibinin sərxoşluğu və hadisənin qəsdən törədildiyi hallar istisna olmaqla ola biləcək bütün zərərlər, hətta təbiət hadisələri və təsadüflər nəticəsində həmin avtomobilin sahibinə dəymiş zərərlərə təminat verir.

Qeyd etdiyimiz kimi, avtomobil nəqliyyat vasitələrinin istismarı ilə bağlı yarana bilən müxtəlif qəzalı vəziyyətlər zamanı avtomobil sahiblərinin daşıdığı mülki məsuliyyət yaranan arzuedilməz qəza hallarında qarşı tərəfə vurulmuş zərərin ödənilməsi ilə əlaqələnir. Bu məsuliyyətin ötürülməsi, yəni dəymiş zərərin əvəzinin ödənilməsinin şəxsin özü tərəfindən deyil, sığortaçı tərəfindən ödənilməsi isə bu sığorta növünün əsas məqsədidir. Belə ki, avtomobillərdən istifadə ilə bağlı risk dərəcəsi yüksək olan hadisələr baş verdikdə həm avtomobilin özünə, həm də onun iştirakçısı olduğu hadisənin digər tərəfinə – üçüncü şəxslərin həyatına, onun sağlamlığına, mal və əmlakına zərərlər dəyə bilər. Bu zaman avtomobil sahibləri vura biləcəkləri zərərlə əlaqədar çıxılmaz vəziyyətə düşə bilərlər. Bu, avtomobil sahibini gözləyən ən mühüm riskli haldır. Məhz bu riskin səviyyəsini nəzərə alaraq avtomobil sahibi olan hər bir şəxsin mülki məsuliyyətinin sığortası icbari qaydada tətbiq olunur.

Avtonəqliyyat vasitəsinin tam sığortası üzrə qəza halları baş verdikdə sığortaolunanın müraciəti əsasında qəza nəticəsində dəymiş zərərin tam məbləğdə, yəni müqavilə bağlanarkən müəyyənləşdirilmiş sığorta məbləği həddində ödənilir.

✍ **Əli CABBAROV**

## Tələbələrlə görüş



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində Naxçıvan Dövlət Texniki Kollecinin Mühasibat uçotu ixtisası üzrə II kurs tələbələri ilə görüş keçirilib.*

Tədbir “Yerli büdcələrin icrasına və təsərrüfat hesablı dövlət orqanlarında xərclərin maliyyələşdirilməsinə nəzarətdə auditin rolu” mövzusunda təşkil olunub.

Qeyd edilib ki, Maliyyə Nazirliyinin əməkdaşları mütəmadi olaraq Naxçıvan Dövlət Texniki Kollecində tədbirlər keçirirlər. Bu isə tələbələrin ixtisas biliklərini dərinləşdirir.

Sonra Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinin Büdcə idarə və təşkilatlarının təftişi sektorunun müdiri Xaqani Vəliyev “Yerli büdcələrin icrasına və təsərrüfat hesablı dövlət orqanlarında xərclərin maliyyələşdirilməsinə nəzarətdə auditin rolu” mövzusunda çıxış edib. O, yerli büdcə, yerli büdcənin gəlirləri, auditin məqsədi, növləri, auditor rəyi barədə ətraflı məlumat verib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Toxmacarlıqlar yaşıllıqların artırılmasına öz töhfəsini verir

*Naxçıvan Muxtar Respublikasında meşələrin qorunması, yaşıllıq sahələrinin artırılması həyata keçirilən ekoloji siyasətin əsasını təşkil edir. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, son 25 ildə muxtar respublika ərazisində yaşıllıqların həcmi 0,6 faizdən 14 faizə qədər artıb. Muxtar respublika ərazisində kəskin kontinental iqlim şəraitinin mövcudluğu, su mənbələrinin azlığı yaşıllıqların qorunmasına, eyni zamanda yeni yaşıllıq sahələrinin salınmasına öz təsirini göstərsə də, işə kompleks yanaşma bu sahədə böyük nailiyyətlərin qazanılmasına səbəb olub.*





Ekoloqlara görə, ərazisinin 25 faizdən çoxu yaşıllıqlarla örtülü olan ölkələrdə ekoloji mühit əlverişli sayılmaqla yanaşı, müxtəlif təbiət hadisələri, o cümlədən torpaq sürüşmələri, sellər, daşqınlar və digər proseslər daha zəif olur. Bu mənada, mühüm yaşıllıq sahələri kimi meşələrin əhəmiyyəti böyükdür və onların təbiətdəki tarazlığı müxtəlif proseslərdən qorumaq kimi funksiyaları var. Bundan əlavə, yaşıllıqlar həm də iqtisadi mənfəətliyinə görə seçilir. Hamımıza məlumdur ki, muxtar respublikada əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz olunmasında yerli kənd təsərrüfatı məhsullarının böyük əhəmiyyəti var. Xüsusilə meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları muxtar respublikada yeni meyvə bağlarının salınması ilə yanaşı, yaşıllıq sahələrinin artmasına da imkan verib. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvanın ənənəvi cəviz, armud, alma, üzüm, heyva, ərik, albalı, gavalı, şaftalı bağlarının şöhrəti yenidən özünə qaytarılıb. Son illərdə isə badam və püstə ağaclarının əkininə diqqət artırılıb, on hektarlarla sahədə yeni bağlar salınıb.

Təbii ki, yaşıllıqların artırılmasında ən mühüm amillərdən biri ting ehtiyatının yaradılmasıdır. Bu məqsədlə 2003-cü ildə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Meşə Tingliyi İdarəsi yaradılıb. Nazirlikdən aldığımız məlumata görə, idarənin 10 hektardan artıq tingyetişdirmə sahəsi var. İndiyədək bu sahələrdə 10 milyondan çox meşə, meyvə, həmişəyaşıl ağac və gül kolları yetişdirilərək müvafiq bölgələrdə əkini təmin olunub. Meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası ilə əlaqədar olaraq isə müxtəlif meyvə tinglərinin, o cümlədən həmərsin, yemişan və bir sıra bu kimi giləmeyvələrin əkininə daha çox üstünlük verilib. Aldığımız məlumatda o da qeyd olunur ki, meyvəçiliyin inkişafında yerli toxum sortlarından istifadəyə böyük üstünlük verilir. Buna görə də tingyetişdirmə sahələrində hər ilin may ayından başlayaraq tut, cəviz, badam, ərik, alma toxumları tədarük edilərək əkin üçün götürülür. Belə toxumların əkini üçün payız fəsli daha effektli sayıldığından mövsüm ərzində bu proses diqqət mərkəzində saxlanılır. Tinglərin əkini zamanı isə rayonlaşdırma əsas götürülür. Hazırda tingyetişdirmə sahələrində 3,5 hektardan çox ərik və badam tingi yetişdirilərək əkin üçün hazırlanıb. Ümumilikdə isə Meşə Tingliyi İdarəsi tərəfindən builki payız mövsümündə əkilməsi üçün meyvə tingləri ilə bərabər, meşə, həmişəyaşıl və dekorativ məqsədli 400 mindən çox ting yetişdirilib.

Onu da xatırladaq ki, bu ilin yaz əkini mövsümündə 223 hektar sahədə əkin işləri aparılıb ki, bunun da 100 hektardan çoxu meyvə bağları olub. Noyabrın 17-də – Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günündə muxtar respublikada keçirilən iməcilikdə isə 14 hektarda bərpa əkini aparılıb, 25,7 hektar yeni meyvə bağı və yaşıllıq zolağı salınıb. Ümumilikdə, 7700 üzüm, 22 mindən artıq müxtəlif meyvə və meşə tingi əkilib. Onu da deyək ki, payız əkini mövsümündə aparılacaq yaşıllaşdırma tədbirlərinə dair hazırlanmış əkin planında, ümumilikdə, 300 hektardan çox sahədə əkin və əkin-bərpa işlərinin aparılması nəzərdə tutulub. Bunun da 150 hektardan çoxu meyvə bağları olacaq. Bütün bunlar bir daha təsdiqləyir ki, bu gün muxtar respublikamızda yeni meyvə bağlarının, yaşıllıqların salınması həyata keçirilən ekoloji siyasətin əsas istiqamətini təşkil edir.

✍ **Səbuhi HƏSƏNOV**

## Dövlət proqramı uşaq əhalisinin sağlamlığının qorunmasında yeni mərhələ açır

*Əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Xüsusən də məktəbyaşlı uşaqların sağlamlıqlarının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyanın təşkilinə xüsusi diqqət yetirilir. Bu il oktyabrın 9-da Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncam da uşaq əhalisinin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısının parlaq ifadəsidir. Dövlət proqramının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə, onlar arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir. Yeni dövlət proqramının əhəmiyyəti və görüləcək işlərlə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayevlə həmsöhbət olduq:*

***– İbrahim həkim, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" uşaq əhalisinin sağlamlığının qorunmasında yeni mərhələ açır. Bu mərhələdə qarşıya qoyulan vəzifələr nədən ibarətdir?***

– Öncə qeyd edim ki, 2018-2022-ci illəri əhatə edən adıçəkilən dövlət sənədi bu istiqamətdə mövcud olan hüquqi bazanın daha da gücləndirilməsinə xidmət edir. Proqramın əsas vəzifələri tibbi müayinələr vasitəsilə uşaqlarda xəstəliklərin və onların risk amillərinin erkən mərhələdə aşkarlanması və sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi, dispanserizasiya tədbirləri çərçivəsində aparılan profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərin qeydiyyat sisteminin təkmilləşdirilməsi, uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidmətində çalışan tibb işçilərinin bilik və bacarıq səviyyələrinin yüksəldilməsidir. Eyni zamanda müvafiq səhiyyə müəssisələrinin maddi-texniki bazalarının yenilənməsinə, onların müasir tibbi texnika və avadanlıqlarla təchizatlarının yaxşılaşdırılmasına, uşaqlar və valideynlər arasında xəstəliklərin profilaktikası məqsədilə aparılan maarifləndirmə işinin gücləndirilməsinə nail olmaqdır. Dispanserizasiya ilə əhatə olunan uşaqların reyestrinin təkmilləşdirilməsi, uşaqlar arasında yayılan xəstəliklərin profilaktikası, müalicə və reabilitasiyası, onlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin monitorinqlərinin həyata keçirilməsi və qiymətləndirilməsi, uşaqlarda təcili və təxirəsalınmaz vəziyyətlərin yaranmasına səbəb olan (ürək-damar, tənəffüs çatışmazlıqları və sair) xəstəliklər üzrə metodik sənədlərin və müalicə-diaqnostika alqoritmlərinin işlənilib hazırlanması və digər tədbirlər həyata keçiriləcəkdir. Səhiyyə Nazirliyi dövlət proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılmasını əlaqələndirməklə yanaşı, sərəncamdan irəli gələn digər məsələləri də həll edəcəkdir.





***– Dövlət proqramının həyata keçirilməsi üçün görüləcək ilkin işlər nədən ibarətdir?***

– Bunun üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində işçi qrupu yaradılıb və tədbirlər planı hazırlanıb. Tədbirlər planına əsasən uşaqlara xidmət göstərən tibb müəssisələrində, ilk növbədə, 0-17 yaşa qədər uşaqların adlı siyahısı hazırlanacaq, pediatr, LOR-həkim, oftalmoloq, stomatoloqdan ibarət həkim briqadaları təşkil olunacaq. İlkin dispanser müayinələrə başlanılacaqdır. Bu müayinələr zamanı uşaqların antropometrik ölçülərinə, görmə qabiliyyətinin, dişlərin, ənsəyin və onurğanın vəziyyətinə xüsusi diqqət olunacaqdır. İcra müddəti ərzində sağlamlıq imkanları məhdud uşaqların bərpa müalicəsi təşkil olunacaq və onlar sanatoriya göndərişləri ilə təmin ediləcəklər. Uşaqlara göstərilən tibbi xidmətin həcminin və keyfiyyət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması, xəstə və xəstələnmə riski olan uşaqların sosial xidmət müəssisələrinə yerləşdirilməsi və müalicəsinin təşkili diqqət mərkəzində saxlanılacaqdır. Dispanserizasiya məqsədilə aparılan tibbi müayinələr zamanı aşkar edilən xəstə uşaqların ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsi həyata keçiriləcəkdir. Uşaqlar arasında nadir hallarda rast gəlinən xəstəliklər barədə, onlarda inkişaf pozuntularının erkən aşkarlanması və erkən müdaxilə sahəsində həkimlər və orta tibb işçiləri üçün seminar və treninqlər təşkil ediləcəkdir. Uşaqlar arasında xəstəliklərin profilaktika və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlıq (o cümlədən yerli mütəxəssislərin xaricdə təlim keçmələri) həyata keçiriləcəkdir. İlkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçilərinin hazırlıq səviyyələrinin yüksəldilməsi məqsədilə müasir tibbi təhsil proqramları da tətbiq olunacaqdır. İcbari dispanserizasiya sahəsində maarifləndirmə, bunun uşaqların sağlamlığının qorunmasındakı roluna dair videomaterialların hazırlanması, buklet və plakatların, digər əyani vəsaitlərin çap etdirilməsi təmin ediləcəkdir.

***– Bu vaxta qədər də dispanserizasiya işləri aparılıb, bir çox xəstəliklər vaxtında aşkar edilərək onların qarşısı alınıb.***

– Uşaq əhalisinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunması, onların müayinə və müalicəsi, dispanserizasiyasının təşkili son illər "Uşaqların icbari dispanserizasiyası haqqında" 2013-cü il 5 mart tarixli Azərbaycan Respublikası Qanununun və ölkə Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun şəkildə icra olunub. Görülən işlər uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazalarının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyələrinin artırılması və digər tədbirlər muxtar respublikada uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına imkan verib.

Xəstə, xəstəliyə şübhəli və ya meyilli uşaqların aşkar edilərək, onların ixtisaslı həkim briqadası tərəfindən müayinələrdən keçirilmələrinə, bu zaman laborator, psixoloji, radioloji və digər xüsusi müayinə vasitələrindən istifadə edilməsinə diqqət yetirilib. Sonrakı mərhələdə müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların daha yüksəkixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və sair) tərəfindən konsultasiyası, lazım olan hallarda isə stasionar müalicəsi təşkil edilib. Aşkar olunan xəstə və xəstələnmə riski yüksək olan uşaqların tibbi-sosial müəssisələrdə yerləşdirilməsi, zəruri reabilitasiya tədbirlərinin və sanator-kurort müalicəsinin həyata keçirilməsi işləri təmin olunub. Dispanser qeydiyyatına alınmış uşaqlara müşahidə kartları açılıb və onlar arasında mövcud təlimata uyğun müalicə-profilaktika tədbirləri həyata keçirilib. Belə ki, uşaq əhalisinin icbari dispanserizasiyasına start verilən 2014-cü ildən bu günə qədər 135 min 104 uşaq icbari dispanserizasiyadan keçib, 4 min 750 şagirddə xəstəliyə meyillilik aşkarlanıb, 250 məktəbli müalicə üçün stasionarlara yerləşdirilib. Onlardan 23-ü Uşaq Bərpa Mərkəzinə, 210-u Duzdağ Fizioterapiya Mərkəzinə, 10-u isə Bakı şəhərindəki Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasına və digər müalicə müəssisələrinə göndərilib.

Dispanserizasiyadan keçən uşaqların Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində reyestri yaradılıb. 2014-cü ildən indiyə qədər 32 min 219 uşaq haqqında məlumat reyestrə daxil edilib. Son illər uşaqların icbari dispanserizasiyası zamanı valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud və sosial qayğıya ehtiyacı olan uşaqların dispanserizasiyasına daha həssaslıqla yanaşılıb.

***– Həyata keçirilən bütün bu tədbirlər nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə nə kimi müsbət dinamika müşahidə olunur?***

– Dispanserizasiya işləri nəticəsində bir çox xəstəliklər vaxtında aşkar edilərək qarşısı alınıb. Anadangəlmə ürək, digər inkişaf qüsurlu uşaqlar vaxtaşırı dispanser müşahidəsinə alınaraq, müayinə və müalicəsi (o cümlədən 16 uşaqda ürək əməliyyatı) aparılıb, müsbət nəticələr əldə edilib. Hemofiliyalı, talassemiyalı, anemiyalı və digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar aşkar edilərək müalicələrə cəlb olunublar. Əsas göstəricilərdən olan uşaq ölümü minimuma enib.

***– Dispanserizasiyanın uğurla həyata keçirilməsində ictimaiyyət də yaxından iştirak etməlidir.***

– Bəli, elədir. Bu prosesdə valideynlərin və təhsil işçilərinin də böyük rolunu qeyd etmək lazımdır. Onlar uşaqların müayinələr üçün gətirilməsində, xüsusi müayinələrdən keçirilməsində fəal iştirak etməlidirlər. Əminliklə demək olar ki, 2018-2022-ci illər üçün dövlət proqramının yerinə yetirilməsində valideynlər və digər qurum işçiləri tibb işçilərinə yaxından köməklik göstərməklə gələcəyimiz olan uşaqların sağlamlığı üçün əllərindən gələni əsirgəməyəcəklər. Çünki ulu öndərimizin dediyi kimi: ***"Bu gün doğulan, dünyaya gələn uşaqlar, bu gün ilk addımlarını atan körpələr 21-ci əsrdə dünyanın məsələlərini həll edəcəklər, bəşəriyyəti yaşadacaqlar. Ona görə də uşaqların sağlamlığının təmin olunması və qorunması hər bir dövlət üçün çox böyük və müqəddəs vəzifədir".***

**Hüseyn ƏSGƏROV**

***Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu əməkdaşlarının iştirakı ilə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində yenidoğulmuşların reanimasiyası üzrə üçgünlük seminar-treninq keçirilib.***

## Yenidoğulmuşların reanimasiyası üzrə üçgünlük seminar-treninq keçirilib

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva tədbirdə çıxış edərək bildirib ki, ölkəmizdə ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər bu sahədə mühüm tədbirlər həyata keçirilib.

"Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı onlara tibbi xidmət göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb.

Qeyd olunub ki, hazırda reproduktiv sağlamlığa və ailə planlaşdırılmasına nəzarət daha da gücləndirilib, səhiyyə-maarifi işləri günün tələbləri səviyyəsində qurulub. Hamilələrin qeydiyyatı işinin daha da yaxşılaşdırılması məqsədilə mamaginekoloji şöbələrdə hamilələrin elektron reyestri yaradılır. Ginekoloji xəstəliklərin vaxtında aşkar edilməsi, müalicə işinin düzgün və səmərəli qurulması üçün profilaktik müayinə tədbirləri daha da gücləndirilir. Bir neçə ildir ki, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində yenidoğulmuşların tibbi müayinələrinin uğurlu icrası, ana və uşaqların sağlamlıqlarının qorunması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilir.

Sonra Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları Fəxrəddin Qarayev və Araz Əliyev yenidoğulmuşlarda yaranan xəstəliklər və onların müalicə yolları haqqında təlim keçiriblər. Təlim zamanı yenidoğulmuşların reanimasiyasında istifadə edilən yeni texnologiyaların, təcili və təxirəsalınmaz halların profilaktikası, erkən diaqnostikası və müalicəsinə dair ən müasir məlumatların təcrübədə tətbiqi barədə ətraflı məlumat verilib. Mövzu ilə bağlı videosüjetlər nümayiş etdirilib.

Muxtar respublikanın səhiyyə müəssisələrində fəaliyyət göstərən həkim-neonatoloqların iştirak etdikləri tədbirdə müzakirələr aparılıb, suallar cavablandırılıb.

Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova müasir informasiya və təhsil texnologiyalarına əsaslanan belə treninqlərin səhiyyə mütəxəssislərinin peşə, bilik və bacarıqlarının təkmilləşdirilməsində mühüm əhəmiyyətini vurğulayıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Təbliğat kampaniyası davam edir

***"Naxçıvan" Universitetinin kitabxanasında "Kitablar tozlanmasın" devizi altında "Kitab qoy, kitab götür" layihəsinin təbliğat kampaniyası keçirilib.***



Əvvəlcə "Naxçıvan" Universitetinin Tədris şöbəsinin müdiri Anar Abuzərli çıxış edərək tədbirin mahiyyəti haqqında məlumat verib.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış edərək muxtar respublikada həyata keçirilən gənclər siyasəti, həmçinin gənclərə göstərilən diqqət və qayğı, onlar üçün yaradılmış şəraitdən danışıb. Bildirib ki, layihənin keçirilməsində məqsəd gənc nəslin tarixə, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərinin, mütaliə vərdişlərinin aşılanması, intellektual səviyyələrinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil olunmasıdır. Vurğulanıb ki, "Kitablar tozlanmasın" devizi altında "Kitab qoy, kitab götür" layihəsinə 2018-ci il 20 iyul tarixdən Naxçıvan şəhərində yerləşən "Zirvə" kitab evində start verilib, orada bunun üçün xüsusi bir guşə ayrılıb. Həmin layihə, eyni zamanda Gənclər və İdman Nazirliyində də davam etdirilir. Bu günədək layihənin 120 iştirakçısı olub.

Təbliğat kampaniyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş oxunması zəruri olan kitablar, həmçinin Azərbaycan və dünya bədii ədəbiyyatı nümunələrinin yer aldığı 100 bədii kitab gənclərin istifadəsinə verilib.

Layihə ilə bağlı suallar cavablandırıldıqdan sonra gənclər özləri ilə gətirdikləri kitabları digərləri ilə dəyişdiriblər. Kampaniya "Naxçıvan" Universitetinin həyatində davam edib.

Qeyd edək ki, təbliğat kampaniyası bundan sonra muxtar respublikanın rayon və şəhərlərində, eyni zamanda digər ali və orta ixtisas təhsili müəssisələrində də həyata keçiriləcəkdir. Layihənin şərtlərinə əsasən mütaliə etmək istəyən hər kəs götürəcəyi kitabın məbləğinə uyğun kitab gətirərək yenisini götürə bilər. Gətirilən kitablar səliqəli, istifadəyə yararlı vəziyyətdə, həmçinin latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyatlar olmalıdır. Öz kitabxanasında olan maraqlı kitablardan gənclərin də faydalanmasını istəyən hər kəs layihəyə dəstək məqsədilə ayrılmış guşəyə kitab hədiyyə edə bilər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Bu şəhər gördüyün o şəhər deyil



*(Rusiyada yaşayan tələbəlik dostuma)*

**Yazırsan, burnunun ucu göynəyir...**
**Sorursan, bu şəhər sənsiz neyləyir?!**
**Nə edir, neyləyir, sonsuz eyləyir –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Gəlmək istəyirsən, buyur gəl, ancaq,**
**Sənə bir bələdçi lazım olacaq.**
**Tək sən yox, kim olsa, çaşbaş qalacaq –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**İnkişaf əməldədir, deyildir dildə,**
**Qüsur yox, kəsir yox bu abad eldə.**
**Yüz illik yol gedib ötən illərdə –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Burda bütün yollar Haqq yolu tək düz,**
**Könül fərəhlənir hər baxdıqca göz...**
**Tərənnüm etməkdə aciz qalıb söz –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Artır göydələnlər, ilbəil artır,**
**Mənzil var, əl atsan buluda çatır...**
**Adı, şan-şöhrəti günbəgün artır –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Çiçək ətirlidir burda küçələr,**
**Aləmə nur saçır nurlu gecələr.**
**Hərdən mələklər də burda gecələr –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Keçmiş yaşadılır, bu gün yaşanır...**
**Dünənlə günümüz burda qoşadır.**
**Hər kəs əl-ələdir, bax, baş-başadır –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Birlik, bərabərlik dağı bağ edir,**
**Zülməti dağıdıb, günü ağ edir.**
**Dünyanı evində o qonaq edir –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Qeyrətdən yoğrulub həm qanı, canı...**
**Əzəmət, vüqardır onun hər yanı.**
**Tanınır, tanıdır Azərbaycanı –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Sözü daşdan keçir, çox kəsərlidir,**
**Qeyrət nümunəli, igid, ərlidir.**
**O, yurda sevginin şah əsəridir –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Bir vaxt çətinliyə dözdü, döyüşdü...**
**Yəqin, həmin illər yadına düşdü...**
**Bu ötən illərdə çox şey dəyişdi –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Yox, bu cür deyildi onda bu şəhər,**
**Qəmlə açılırdı burda hər səhər.**
**Başından tökülür indi bar, bəhər –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Gündüzlər Günəşə nur, işıq salır,**
**Axşamlar nurundan Ay işıq alır.**
**Günbəgün, anbaan o işıqlanır –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Qeyrətli oğullar yaradır, qurur,**
**Hüsnünə min bəzək, yüz naxış vurur.**
**Başını dik tutub, vüqarla durur –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Düşmənə güc gəldi, budur, sağdı o,**
**Dağyunus elində yaşıl tağdı o.**
**Gül-çiçək içində uca dağdı o –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Bizlər tələbəykən yaxşı nə vardı?!**
**Meydanlar xaraba, küçələr dardı...**
**İndi hər tikili qürur, vüqardı –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Keçmişə məhəbbət, bu günə qayğı,**
**Böyüyə ehtiram, kiçiyə saygı...**
**Onu cənnət edib bu gözəl duyğu –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Sükan etibarlı əldədir, bəli!**
**El Onu çox sevir, O isə eli...**
**Behiştə çevrilir dəydikcə əli –**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Torpaq Vətən olur, uğrunda ölsən...**
**Vətən ana olur, başına dönsən...**
**Vətən cənnət olub, Vətənə gəl sən!**
**Bu şəhər gördüyün o şəhər deyil...**

**Qafar QƏRİB**

## Növbəti interaktiv dərs keçilib



*Naxçıvanda şahmat idman növünün inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə şəhər və rayonlarda şahmat məktəbləri tikilərək zəka sahiblərimizin ixtiyarına verilib. Eyni zamanda müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş şahmat məktəblərində distant və interaktiv təhsilin təşkili üçün hər cür şərait yaradılıb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şahmat Federasiyası belə tədbirlərin davamı kimi mütəmadi olaraq şahmat məşğələləri də təşkil edir.

Naxçıvan Şahmat Mərkəzində keçirilən növbəti məşğələni beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb. Məşğələ 200-dən artıq təhsil müəssisəsində interaktiv formada, şəhər və rayon şahmat məktəbləri arasında isə 200-dən çox şahmatçı tərəfindən elektron lövhə vasitəsilə izlənilib. Məşğələ zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.





Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil olunan və qabaqcıl şahmat müəllimlərinin tədris etdiyi belə məşğələlərin keçirilməsində məqsəd şahmatın kütləviliyinə nail olmaq, şagirdlərin bu sahəyə meyil və maraqlarını daha da artırmaq, qarşılıqlı fikir mübadiləsi aparmaqla şahmatçılar arasında rəqabət mühitini formalaşdırmaqdır.

**Ceyhun MƏMMƏDOV**

## İntellektual oyuna yekun vurulub

*"Nə? Harda? Nə zaman?" intellektual oyununun muxtar respublika mərhələsi olub.*



Oxunması zəruri olan kitablarla əlaqədar keçirilən oyunda muxtar respublikanın şəhər və rayonlarını təmsil edən 8 komanda mübarizə aparıb. Məqsəd muxtar respublikada yeniyetmə və gənclərin intellektual oyunlara cəlb edilməsi, onların dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq və oxunması zəruri olan kitabların yeniyetmə və gənclər arasında mütaliəsinə nail olmaqdır.

Reqlamentə əsasən oyun iki mərhələdən – rayon (şəhər) və muxtar respublika mərhələsindən ibarət olub. Birinci mərhələdə qalib gələn komandalar muxtar respublika birinciliyində iştirak etmək hüququ qazanıblar. Hər komandanın tərkibində 6 iştirakçı hər biri 12 sualdan ibarət olan iki turda mübarizə aparıb.

İntellektual oyunun yekun nəticəsinə əsasən Kəngərli rayonunun "Turan" komandası qalib adını qazanıb. Digər iki pillədə isə Culfanın "İstiqlal" və Naxçıvan şəhərinin "Sirlər xəzinəsi" komandaları qərarlaşıblar. Sonda qalib komandalar təşkilatçılar tərəfindən diplom, fəxri fərman və kubokla mükafatlandırılıblar.

Oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

## Hüquqi maarifləndirmə günün tələbidir

**Sual:** *Əmək məzuniyyətlərinin verilməsində növbəlilik necə tənzimlənir?*

**Cavab:** Əmək məzuniyyətinin verilməsində növbəliliyin müəyyən edilməsi hər bir müəssisə, idarə və təşkilatda istehsalın, xidmətin və işin normal gedişinin təmin olunması, işçilərin istirahət hüququnun təminatlarından biri olan məzuniyyətdən daha məqsədyönlü və səmərəli istifadə edilməsi və məzuniyyətlərin dəqiq uçotunun aparılması məqsədi daşıyır.

İşçilərə əmək məzuniyyətinin verilməsi növbəliliyi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 133-cü maddəsi ilə tənzimlənir.

Qeyd olunan maddəyə əsasən istehsalın və işin normal gedişini tənzimləmək, məzuniyyətlərin uçotunun düzgün aparılmasını təmin etmək məqsədi ilə hər il yanvarın sonunadək əmək məzuniyyətlərinin verilməsi üçün növbəlilik cədvəlləri tərtib edilə bilər.

Əmək məzuniyyətlərinin verilmə növbəsi həmkarlar ittifaqları təşkilatının, o olmadıqda isə işçinin rəyi öyrənilməklə işəgötürən tərəfindən təsdiq edilir.

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 852